Aprelin 3-də "Minasız Azərbaycan" – Uşaqların Yaradıcı Gücü ilə Mina Təhlükəsizliyi" adlı tədbir çərçivəsində "Minasız Azərbaycan" yaradıcılıq müsabiqəsinin final mərhələsi keçirilib.

Müsabiqənin məqsədi yaradıcı yanaşma ilə mina təhlükəsizliyi mövzusunda uşaqlar arasında maarifləndirməni genişləndirmək olub. Rəsm, heykəltaraşlıq, video və süni intellekt vasitəsilə yaradılan qrafik dizayn nominasiyaları üzrə keçirilən "Minasız Azərbaycan" yaradıcılıq müsabiqəsinə məktəblilər tərəfindən 100-dən çox rəsm, heykəltaraşlıq, süni intellekt (AI) ilə yaradılmış qrafik dizayn, mina təhlükəsi ilə bağlı maarifləndirici vizual materiallar, fotoşəkil və digər yaradıcılıq nümunələri təqdim edilib.

Final mərhələsində müsabiqəyə təqdim olunan işlər arasından dörd nominasiya üzrə I, II, III yerlər üzrə qaliblər seçilərək diplom və mükafatlarla təltif olunublar.

Tədbir zamanı sərgilənən yaradıcılıq nümunələri iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb və mina təhlükəsizliyi mövzusunda maarifləndirmə işlərinin yaradıcı yanaşma ilə aparılmasının əhəmiyyəti bir daha vurğulanıb.
Tədbir çərçivəsində Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və 1 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsinin birgə təşkil etdiyi sərginin hazırlıq mərhələsində uşaqlar peşəkar müəllim və metodistlərin rəhbərliyi ilə mina təhlükəsizliyi mövzusunda öz rəsm əsərlərini yaradıblar.

Qeyd edək ki, 4 Aprel – Beynəlxalq Mina Xəbərdarlığı və Mina Təhlükəsinə qarşı Mübarizə Gününə həsr olunan, Elm və Təhsil Nazirliyi, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) birgə təşkilatçılığı ilə keçirilən "Minasız Azərbaycan" – Uşaqların Yaradıcı Gücü ilə Mina Təhlükəsizliyi" adlı tədbirin əsas məqsədi uşaqlara mina təhlükəsizliyi barədə biliklərin aşılanması və bu istiqamətdə yaradıcı potensiallarının inkişaf etdirilməsi olub.